# ABŞERON-XIZI İQTİSADİ RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ VƏ ƏHALİNİN DİNAMİKASI

**Qaçayeva Ə.R., Cəfərov A.B.**

*Bakı Dövlət Universiteti*
*efsane.qacayeffa@gmail.com*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevun 7 iyul 2021-ci il tarixli Fəramanı ilə Azərbaycan Respublikasının ərazisində 14 iqtisadi rayon ayrılmışdır. Bu rayonlardan biri Abşeron-Xızı rayonudur. Abşeron-Xızı iqtisadi rayonuna Abşeron, Xızı inzibati rayonları və Sumqayıt şəhəri daxildir. Abşeron inzibati rayonuna yaşayış məntəqələrinə aşağıdakı şəhər, qəsəbə və kəndlər daxildir: Xırdalan şəhəri, Aşağı Güzdək, Digah, Ceyranbatan, Güzdək, Hökməli, Qobu, Mehdibad, Pirəkəşkül, Qobu qəsəbələri, Fatmayı, Görədil, Masazır, Məmmədli, Novxanı, Nubar, Qobustan kəndləri. Xızı inzibati rayonu Xızı qəsəbəsi, Ağdərə (Xızı), Baxışlı, Bəyəhmədyurd, Dizəvər, Əmbizlər, Əngilan, Fındığan, Güneyqışlaq, Xələc (Xızı), Qarabulaq (Xızı), Qars (Xızı), Qasımkənd(Xızı), Qızılqazma(Xızı), Məşədi Həsən, Safbulaq, Sayadlı, Sitalçay, Təzəkənd, Tıxlı, Tüdar, Türkoba (Xızı), Upa, Vərdah, Yarımca (Xızı), Yaşma, Yeni Yaşma, Yuxarı Əngilan kəndlərindən ibarətdir. Sumqayıt şəhərinin yaşayış məntəqələrinə isə şəhərin qəsəbələri və yaşayış massivləri daxildir: Corat, Hacı Zeynalabdin, Kiçik Pirəkəşkül, stansiya Sumqayıt, Şirvan, Yaşıl Dərə, Yaşma bağları.

Abşeron-Xızı iqtisadi rayonun əhalisinin ümumi sayı 578,8 min nəfərdir. İqtisadi rayonun əhalisi illər üzrə aşağıdakı cədvəllərdəki kimi qruplaşdırılmışdır.

**Cədvəl 1. Abşeron-Xızı iqtisadi rayonuna daxil olan ərazilərdə yaşayan əhalinin sayı, min nəfər**

| Abşeron-Xızı iqtisadi rayonuna daxil olan ərazilər | 2009-cu il üzrə keçirilmiş əhalinin siyahıya alınması üzrə | 01.01.20201-ci il vəziyyətinə görə | 01.01.2021-ci il tarixə əhalinin sayı (1 kv. km, nəfər) |
|---|---|---|---|
| Cəmi | 514,0 | 578,8 | 155 |
| Abşeron rayonu | 189,8 | 215,2 | 109 |
| Xızı rayonu | 14,7 | 346,4 | 10 |
| Sumqayıt şəhəri | 309,5 | 17,2 | 3849 |

**Cədvəl 2. 2020-ci il Abşeron-Xızı iqtisadi rayonun şəhər və kəndlər üzrə əhalinin orta illik sayı (min nəfər)**

| İqtisadi və inzibati şəhər və rayonların adları | Şəhər əhalisi | o cümlədən | | Kənd əhalisi | o cümlədən | |
|---|---|---|---|---|---|---|
| | | Kişilər | Qadınlar | | Kişilər | Qadınlar |
| Abşeron-Xızı rayonun ümumi sayı | 531,7 | 263,5 | 268,2 | 47,1 | 24,1 | 23,0 |
| Abşeron | 176,3 | 88,0 | 88,3 | 38,9 | 20,0 | 18,9 |
| Xızı | 9,0 | 4,4 | 4,6 | 8,2 | 4,1 | 4,1 |
| Sumqayıt | 346,4 | 171,1 | 175,3 | - | - | - |

Beləliklə, cədvəl 1-dən göründüyü kimi əhalinin sayı 2009-cu və 2021-ci illərdə Abşeron və Xızı inzibati rayonları və Sumqayıt şəhəri üzrə siyahıya alınmışdır. Cədvəl 2 də isə Abşeron və Xızı inzibati rayonlarının şəhər və kəndində yaşayan əhalinin və Sumqayıt şəhəri üzrə yaşayan əhalinin cins bölgüsü aparılmışdır.